# Ukraynada daha bir azərbaycanlı həlak olub



**Ukraynada gedən döyüşlərdə əslən azərbaycanlı olan hərbçi həlak olub.**

Kirovoy Roq şəhəri azərbaycanlılar Konqresinin sədri Rəmzi Rzayevin "Report"un Şərqi Avropa bürosuna verdiyi məlumata görə, bu, əslən Azərbaycanın Balakən rayonundan olan, Ukrayna vətəndaşı Əliyev Rüstəm Ramazan oğludur. O, Xerson istiqamətində Knyazovka rayonunda artilleriya atışmaları nəticəsində həlak olub. R.Rzayev bildirib ki, daha bir azərbaycanlı da bundan əvvəl həlak olub. Konqres onların dəfni, ailələrinə dəstək məsələlərində yaxından iştirak edib.

# Tramp 2024-cü ildə yenidən prezidentliyə namizəd ola bilər



**ABŞ-ın sabiq prezidenti Donald Tramp 2024-cü ildə keçiriləcək seçkilərdə yenidən namizədliyini verə bilər.**

Trend-in məlumatına görə, bunu mətbuata açıqlamasında D.Trampın kürəkəni və keçmiş köməkçisi Cared Kuşner deyib.

Qeyd olunub ki, Donald Tramp əvvəllər də prezidentliyə namizədliyini təkrar irəli sürə biləcəyini ifadə edib.

*Xatırladaq ki, D.Tramp 2016-2020-ci illərdə ABŞ prezidenti olub. O, 2020-ci ilin noyabrında Cozef Baydenə cüzi fərqlə məğlub olub.*


❐ № 158 (5680), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 sentyabr 2022-ci il (şənbə)





# Metroda gediş haqları bahalaşmayacaq

## "Bakı Metropoliteni" Tarif Şurasına müraciət etməyib

**Son günlər ictimai nəqliyyatda, məxsusi olaraq metroda gediş haqlarının artacağına dair müxtəlif fikirlər səsləndirilir.**

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov "Şərq"ə açıqlamasında iddialara aydınlıq gətirib:

"Qiymətlərin tənzimlənməsi ilə bağlı "Bakı Metropoliteni" QSC-nin hər hansı səlahiyyəti yoxdur. Metropoliten yalnız sərnişindaşıma fəaliyyəti ilə məşğuldur. Amma metropoliten aidiyyəti dövlət qurumlarına, o cümlədən Tarif Şurasına hesabatlar verir. Qiymətlərin tənzimlənməsi, yenidən baxılması ilə bağlı müraciət isə olmayıb".

**Aygün Tahir**



# "Biz vəziyyətə nəzarət edirik"

## Prezident İlham Əliyev: "Addımlarımızı öz strategiyamıza uyğun atacağıq"

**"Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq". Bu barədə Prezident İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda sualları cavablandırarkən bildirib.**

Dövlət başçısı bildirib:

"Bu, çətin görünə bilər. Lakin bu, bizim tariximizdir, bizim coğrafiyamızdır və biz bu coğrafiyada hər zaman yaşamışıq. Nə biz, nə də qonşularımız bu coğrafiyanı dəyişə bilməz. Düşünürəm ki, ölkəmizin uğuru siyasi inkişafda, müstəqilliyin gücləndirilməsindədir.

# General-mayor həbs olunub

## Bəkir Orucov "Tərtər işi" üzrə təqsirli bilinir



**Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən, general-mayor Bəkir Orucovun nədə təqsirli bilindiyi məlum olub. Bəkir Orucov "Tərtər işi" ilə bağlı təqsirləndirilən şəxs qismində həbs olunub.**

O, Cinayət Məcəlləsinin 341.2.3 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərini aşma) və digər maddələri üzrə ittiham olunur. Bakı Hərbi Məhkəməsinin qərarı ilə onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Generalın həbsi barədə hələlik rəsmi məlumat açıqlanmayıb.

# Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

## Nəticədə iki hərbi avtomobilin ön hissəsi və şüşələri zədələnib






**Sentyabrın 2-si saat 15:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini, həmçinin qeyd olunan mövqelərimizə təminat daşıyan 2 hərbi nəqliyyat vasitəsini atəşə tutub.**

Müdafiə Nazirliyindən "Şərq" ə verilən məlumata görə, nəticədə hər iki avtomobilin ön hissəsi və şüşələri zədələnib.

Hərbi qulluqçularımız arasında itki yoxdur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

# Paşinyanın Brüsseldən gözləntiləri puça çıxdı

## Ermənistanın baş naziri yenidən Rusiyadan mədət ummağa çalışacaq



**Dördüncü Brüssel görüşünün yekunlarını şərh etməzdən öncə nəzərə almalıyıq ki, Ermənistan açıq şəkildə etiraf etməsə də, əvvəlki üç görüş üzrə razılaşmaların icrasında maraqlı olmayıb.**

Bu mənada sonuncu görüşdə əldə olunan razılaşmalar elə ilk baxışdan prosesin Azərbaycanın iradəsinə və maraqlarına uyğun formada cərəyan etdiyindən xəbər verir. Budəfəki Brüssel görüşü öhdəliklərin müəyyən olunması, arzuolunmaz məqamlara toxunulmaması baxımından Azərbaycanın milli mənafelərini əhatələyib. İrəvanın sülh müqaviləsinin mətni üzərində iş aparmaq üçün işçi qrupun formalaşdırılması barədə rəsmən razılıq verməsi mühüm bir addım kimi qiymətləndirilə bilər, sadəcə bu razılıq bəyanatla kifayətlənmədən, real işlərin görülməsi ilə nəticələnməlidir ki, səddin keçilməsi anlamına gəlir.

(səh.2)

# Laçında döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə döyüş növbətçiliyinin təşkili ilə bağlı həyata keçirilən tədbirlər davam etdirilir.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Laçın rayonunda Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən strateji əhəmiyyətli Üçdik yüksəkliyində döyüş növbətçiliyi yüksək səviyyədə təşkil edilib. Burada şəxsi heyətin gecə və gündüz nümunəvi xidmət etməsi, döyüş qabiliyyətinin və döyüşə hazırolma vəziyyətinin daim yüksək səviyyədə saxlanılması məqsədilə bütün zəruri tapşırıqlar icra olunur. Azad olunmuş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili istiqamətində həyata keçirilən kompleks tədbirlər davam edir.

# Koronavirusadan 8 nəfər vəfat edib

## 437 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 437 yeni yoluxma faktı qeydə alınıb, 554 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 8 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 814 435 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 801 276 nəfər müalicə olunaraq sağalıb, 9 813 nəfər vəfat edib, aktiv xəstə sayı 3 346 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 191, hazırkı dövrədək isə 7 162 508 test aparılıb.*

# Bakıda mənzildə meyit tapılıb



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Bakı şəhərinin Xətai rayonunda 1 nəfərin mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalması barədə məlumat daxil olub.**

FHN-dən "Şərq"ə verilən məlumata görə, hadisə yerinə cəlb olunan FHN-nin Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1 nəfərin meyitini aidiyyəti üzrə təhvil veriblər.



# Milyarder Vardanyan imkanlı erməniləri Xankəndiyə çağırır

## Bu təxribatın arxasında yenə Rusiyadakı siyasi dairələr dayanır

(səh.3)

# Payızda yoluxma sayının artacağı gözlənilir

## Dərslərin distant formaya keçirilməsi ilə bağlı qərarı Nazirlər Kabineti verəcək

(səh.4)



# “Biz vəziyyətə nəzarət edirik”

## Prezident İlham Əliyev: “Addımlarımızı öz strategiyamıza uyğun atacağıq”




“Heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq”

**“Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb”.**

Bu barədə Prezident İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda sualları cavablandırarkən bildirib.

Dövlət başçısı bildirib:

“Bu, çətin görünə bilər. Lakin bu, bizim tariximizdir, bizim coğrafiyamızdır və biz bu coğrafiyada hər zaman yaşamışıq. Nə biz, nə də qonşularımız bu coğrafiyanı dəyişə bilməz. Düşünürəm ki, ölkəmizin uğuru siyasi inkişafda, müstəqilliyin gücləndirilməsindədir. Biz keçən il müstəqilliyimizin 30-cu ildönümünü qeyd etdik. Bu göstərir ki, qonşularla normal münasibətləri saxlamaq mümkündür. Eyni zamanda, bizim ölkəmizdən çox böyük olan qonşularla da münasibətləri saxlayaraq öz milli kimliyimizi, müstəqilliyimizi və müstəqil siyasi mövqeyimizi qorumaq da mümkündür. Qonşularımızla münasibətlərə gəldikdə isə deyə bilərəm ki, biz hər zaman əməkdaşlıq sahələrini tapmağa çalışırıq. Problemli sahələri və yaxud da fərqli mövqelərimiz olan məsələləri hər zaman ifadə etmişik. Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq. Bizim hər zaman öz siyasətimiz olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Buna görə də düşünürəm ki, biz uğur əldə etmişik. Azərbaycan artıq sabit siyasi mövqeyə malikdir, həmçinin iqtisadiyyatımız da sabitdir. Biz müstəqil olmaq üçün iqtisadi anlamda yatırımlar etmişik. Yoxsa biz özümüzü asılı hiss edərdik. Azərbaycan imperiyaların hissəsi olub, biz Sovet İttifaqının bir parçası olmuşuq. Artıq 30 ildir ki, bizim insanlarımız müstəqildir və biz əbədi olaraq müstəqil yaşamaq istəyirik. Bunun üçün biz güclü olmalıyıq. Bizim yaxşı dostlarımız olmalıdır”.

**Prezident İlham Əliyev daha sonra bildirib ki, addımlarımızı öz strategiyamıza uyğun atacağıq:**

”Bu, bir çox məsələlərdən asılıdır. Təbii ki, yeni qlobal vəziyyətin necə olacağını öncədən təxmin etmək çətin məsələdir. Yalnız bu aydındır ki, dünya fevraldan əvvəl olduğu vəziyyətdə heç vaxt olmayacaq. Dünya dəyişib və bu dəyişikliklərin hansı axımla gedəcəyi bu amillərdən asılıdır - Ukraynada müharibə nə qədər müddət davam edəcək, bu savaşın sonu necə bitəcək, dünyadakı və təbii ki, regiondakı güclərin balansı hansı şəkildə olacaq? Yeni müstəqil bir ölkə kimi, özümüzü xarici amillərdən müdafiə etmək bizim üçün əsas məsələ olacaq. Çünki bizim ölkələrimiz daxilən artıq inteqrasiya edib. Bizim daxildə ölkəmizi hansı yöndə inkişaf etdirmək üçün birliyimiz var. Buna görə də yeni qlobal düzənin bizim regiona təsirləri, böyük region ölkələrinin mövqelərinin necə olacağı, Ermənistanla sülhə nail olmaq planlarımızda nələr əldə edəcəyimiz, övladlarımız və yeni nəsillərin gələcəyinin necə olacağı bizim üçün maraqlıdır. Odur ki, biz vəziyyətə nəzarət edirik. Təbii ki, addımlarımızı öz strategiyamıza uyğun atacağıq. Eyni zamanda, biz dünyanın dəyişməsi faktına əhəmiyyət verməyə bilmərik. Həmçinin beynəlxalq hüquq normalarının tamamilə pozulduğunu görürük. Bu beynəlxalq hüquq normaları elə bizim öz məsələmizdə də pozulmuşdur. Biz torpaqlarımız işğal altında olarkən beynəlxalq ictimaiyyətə fəal şəkildə müraciət etmişdik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri 27 il ərzində yerinə yetirilməmişdi. Biz indi bir çox digər bölgələrdə beynəlxalq hüququn pozulmasını görürük. Biz görürük, bəzi ölkələr düşünür ki, onlar buna məhəl qoymaya bilərlər və buna əhəmiyyət vermirlər. Beləliklə də bu, tamamilə yeni situasiyadır. Dünyanın yeni düzəni necə olacaq? Beynəlxalq institutlar, Birləşmiş Millətlər Təşkilatı necə olacaq? O, yenidən qurulacaq, ya başqa bir təşkilat ortaya çıxacaq? Bunların hamısı dünyada yeni fikirləri təşviq etmə gücünə malik olanların məsuliyyətindədir”.



**Dördüncü Brüssel görüşünün yekunlarını şərh etməzdən öncə nəzərə almalıyıq ki, Ermənistan açıq şəkildə etiraf etməsə də, əvvəlki üç görüş üzrə razılaşmaların icrasında maraqlı olmayıb.**

Bu mənada sonuncu görüşdə əldə olunan razılaşmalar elə ilk baxışdan prosesin Azərbaycanın iradəsinə və maraqlarına uyğun formada cərəyan etdiyindən xəbər verir. Budəfəki Brüssel görüşü öhdəliklərin müəyyən olunması, arzuolunmaz məqamlara toxunulmaması baxımından Azərbaycanın milli mənafelərini əhatələyib. İrəvanın sülh

# Paşinyanın Brüsseldən gözləntiləri puça çıxdı

## Ermənistanın baş naziri yenidən Rusiyadan mədət ummağa çalışacaq

müqaviləsinin mətni üzərində iş aparmaq üçün işçi qrupun formalaşdırılması barədə rəsmən razılıq verməsi mühüm bir səddin keçilməsi anlamına gəlir. Çünki ötən iki il ərzində Ermənistan ciddi heç bir addım atmayıb. Davamlı olaraq sülh razılaşmasından yayınan, sabotajla məşğul olan Ermənistan nəhayət bu istiqamətdə ilkin razılığını ifadə etməyə məcbur oldu. Brüssel görüşü və Şarl Mişelin açıqlamasında diqqət çəkən digər vacib məqam müzakirələrdə Qarabağ mövzusunun gündəmə gəlməməsidir. Habelə, ATƏT-in Minsk qrupu institutunun adının çəkilməməsi ömrünü başa vurmuş bu təsisatın dirçəldilməsi istiqamətində uğursuz səylərə tutarlı cavab oldu. Bununla sülh prosesində ləngitmə kimi İrəvan üçün xarakterik davranışa imkan verilməyəcək. Yeni Brüssel prosesinin davamında uğurlu yekun sülh sazişinə ümid etmək olar.

“İkitərəfli format ən unikal variantdır və bu format Qərb masasındakı müzakirələrdə ön plana çıxıb”

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, Brüsseldə sülh sazişi mətninin hazırlanması bir ay müddətində işçi qrupunun yaradılması ilə bağlı razılaşma əslində əvvəlki razılaşmanın yenidən aktuallaşdırılmasıdır. Analitik xatırladıb ki, bundan öncəki görüşlərdə sülh sazişi üzrə işçi qruplarının yaradılması razılaşması əldə olunmuşdu:** ”Azərbaycan tərəfi işçi qrupunu formalaşdırdı, Ermənistan tərəfi isə heç bir praktiki addım atmadı. Beləliklə, bu razılaşma faktiki kağız üzərində qaldı. Şarl Mişel Avropa İttifaqı vasitəsilə əldə olunmuş bu razılaşmada irəliləyişin olmasına çalışır və bu məqsədlə sonuncu görüşdə məsələ yenidən müzakirə edilib. Görünür, Paşinyanın öhdəliyini yerinə yetirməsi razılaşdırılıb. Burada ”ikitərəfli format” məsələsi xüsusilə diqqət çəkir. Azərbaycan əvvəldən ikitərəfli formata üstünlük verir. Çünki üçüncü tərəflər olmadıqda Ermənistanla münasibətlərin normallaşması imkanları daha genişdir. Məsələn, Rusiya prosesdə aktiv iştirak edirsə, öz maraqlarının da təmin edilməsinə çalışacaq. Bu baxımdan, ikitərəfli format ən unikal variantdır və bu format Qərb masasındakı müzakirələrdə ön plana çıxıb”.

**A.Nərimanlıya görə, kağız üzərindəki razılaşmalarda belə görünür ki, üçüncü tərəflər olmayacaq. Lakin praktikada bunun necə işləyəcəyi, ümumiyyətlə, işləyib-işləməyəcəyi sual altındadır:** ”Ermənistan qeyri-konstruktiv yanaşma sərgiləyir. Moskva masasında istədiyini ala bilməyəndə Brüssel masasına üz tutur. Brüsseldə istədiyi olmayanda Moskvaya qaçır. Fikrimcə, Paşinyan yenidən Rusiyadan mədət ummağa çalışacaq. Bu baxımdan, razılaşmanın 1 ay müddətində icra ediləcəyi sual altındadır. Ermənistan tərəfi Qarabağ məsələsində geri çəkilsə də, sərhəd və kommunikasiyanın açılması məsələsində maraqlarının müəyyən qədər təmin edilməsinə çalışır. Xüsusilə Zəngəzurun ”yol məntiqi” ilə açılmasını, eləcə də sərhədin mövcud xətlər üzrə saxlanılmasını istəyir. Bu istəklərinin həyata keçməsi çətindir, lakin hələ də dirəniş göstərir və bu baxımdan, prosesin uzana biləcəyi gözləntisi daha çoxdur”.

*Ekspertin fikrincə, Brüssel görüşündən Azərbaycanın əsas qazanclarından biri də öhdəliyini yerinə yetirməyən Ermənistana qarşı ata biləcəyi addımları legitimləşdirmək oldu:* ”Çünki İrəvan Moskvanın vasitəçiliyi ilə əldə olunan razılaşmalara tam əməl etmir. Eyni zamanda Brüsselin vasitəçiliyi ilə əldə olunan razılaşmalardan da boyun qaçırır. Bu da Bakıya imkan verir ki, qarşı tərəfi məcbur edəcək addımlar atsın. Belə addımlar həm Moskva, həm Brüssel tərəfindən dəstəklənməsə belə, ən azı onların neytral qalmasını təmin edə bilər”.

**İsmayıl Qocayev**




# Prezidentin nüfuzlu forumda çıxışı böyük hadisədir

## Hər şeydən öncə ona görə ki, bu beyin mərkəzinin ənənəvi olaraq təşkil etdiyi forumlar daima dünya ictimaiyyətinin diqqət mərkəzində olur

**Sentyabrın 2-də İtaliyada ”The European House - Ambrosetti” beyin mərkəzi tərəfindən ”Dünya, Avropa və İtaliyaya baxış” və ”Rəqabətli strategiyalar üçün bu günün və sabahın senarisi” mövzusunda 48-ci beynəlxalq Forum keçirilib.**

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya dövlət başçısı Sercio Mattarellanın, İtaliya Nazirlər Şurasının Sədri Mario Draqinin dəvəti ilə beynəlxalq foruma əsas qonaq qismində qatılıb. Dövlət başçısı forumun plenar iclasında ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxış edib. Azərbaycan lideri geosiyasi proseslərin, dünyanın siyasi mənzərəsinin masaya yatırıldığı beyin mərkəzinin qonağı kimi, forumun kürsüsündə nitq söyləyib. Dünyada gedən proseslər, ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” barəsində fikirlərini bölüşüb. Qeyd edək ki, ”The European House - Ambrosetti” İtaliya və Avropa üçün potensiala malik ölkələrlə əməkdaşlığın təşviqinə müsbət təsir etmək imkanı olan və ikitərəfli iqtisadi gündəmləri inkişaf etdirmək iqtidarında olan liderləri bir araya gətirir. Yüksək səviyyəli müzakirə platformaları təqdim edir. Bu il Azərbaycan liderinin əsas qonaq olaraq iştirak etdiyi Çernobbio Forumu İtaliyada dövlətlərin rəhbər şəxslərinin, rəsmilərinin, İtaliya və Avropanın böyük şirkətlərinin rəhbərlərinin bir araya gəldiyi ən nüfuzlu platformadır. Forum yüksək səviyyəli qonaqlar, beynəlxalq siyasi və iqtisadi səhnənin aparıcı liderləri ilə görüşmək və müzakirələr aparmağa şərait yaradır. Forum zamanı nüfuzlu ekspertlərin töhfəsi ilə biznes ictimaiyyəti və İtaliya üçün aktual olan məsələlərlə bağlı hazırlanmış ən mühüm tədqiqatlar təqdim edilir. Qeyd edildiyi kimi, İtaliya üçün xüsusi önəm kəsb edən ölkələrin dövlət və hökumət başçıları və rəsmi şəxsləri Forumun ilk gününə dəvət edilirlər. Azərbaycan Prezidenti də nüfuzlu Foruma ilk gün dəvət olunmuş xüsusi qonaqlardandır. Şübhəsiz, bu amil dövlət başçımızın qlobal aləmdə böyük nüfuza sahib olmasından xəbər verir.

**Millət vəkili Hikmət Babaoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan Prezidenti İtaliyaya işgüzar səfəri və görüşləri iki ölkə arasında strateji münasibətlərin daha da dərinləşməsi və gələcək əməkdaşlıq imkanlarının perspektivləri baxımından olduqca əhəmiyyətli idi.** Deputatın sözlərinə görə, səfər çərçivəsində enerji, iqtisadiyyat, elm və təhsil kimi strateji sahələr üzrə yeni tərəfdaşlıq platformalarının yaradılması İtaliya-Azərbaycan arasında yeni səhifə açdı: ”Azərbaycan Prezidentinin 48-ci beynəlxalq Çernobbio Forumunda iştirakı ayrıca bir hadisə hesab edilə bilər. Hər şeydən öncə ona görə ki, bu beyin mərkəzinin ənənəvi olaraq təşkil etdiyi forumlar daima dünya ictimaiyyətinin diqqət mərkəzində olur. Avropanın geosiyasi və geoiqtisadi maraqları daxilində olan prioritet məsələlərin müzakirə edildiyi mötəbər bir platforma hesab edilir. Hazırda Avropa özünün şərqində yaşanan müharibə kontekstində həm siyasi birlik, həm iqtisadi-maliyyə münasibətləri, həm də enerji təchizatı və təhlükəsizliyi baxımından olduqca kritik bir mərhələdən keçməkdədir. Belə mürəkkəb şəraitdə Azərbaycan Prezidentinin verdiyi ismarıclar təkcə Azərbaycan-İtaliya münasibətlərinin gələcəyi deyil, bütövlükdə ən böyük ticarət tərəfdaşımız olan Avropa İttifaqı ilə münasibətlər baxımından vacib əhəmiyyət kəsb edirdi. Prezident ”The European House - Ambrosetti” beyin mərkəzindən mühüm mesajlar verdi. Nəzərə almaq lazımdır ki, 1965-ci ildən fəaliyyət göstərən ”The European House - Ambrosetti” İtaliyanın idarəetmə-məsləhət xidməti sahəsində aparıcı beyin mərkəzi hesab olunur. Mərkəz Avropa və onun hüdudlarından kənarda ofislərə və geniş tərəfdaşlıq şəbəkəsinə malikdir. Müxtəlif illərdə Çernobbio Forumunda dünya ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və digər nüfuzlu şəxslər iştirak ediblər. ”The European House - Ambrosetti” beyin mərkəzinin Forumuna dəvət Prezident İlham Əliyevin şəxsiyyətinə böyük hörmətin ifadəsidir. Azərbaycan Prezidenti bu mötəbər platformadan Avropanın gələcək enerji təhlükəsizliyi, yaşıl enerji üzrə tərəfdaşlıq, beynəlxalq hüquq və onun tələblərinin yerinə yetirilməsi kontekstində uzunmüddətli və etibarlı tərəfdaşlığın mümkün olması məsələlərindən danışdı. Azərbaycanın da beynəlxalq münasibətlər sistemində milli maraqları və beynəlxalq hüququ əsas tutduğunu bildirdi. Bütün bunlar isə İtaliya və Avropa ölkələri ilə əməkdaşlıqda yeni imkanlar yaradan paradiqmalar kimi qəbul edildi”.

**İsmayıl**

# MEDİA-da "Əl-Cəzirə" Media Şəbəkəsinin baş jurnalisti ilə görüş keçirilib

**Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov ”Əl-Cəzirə” Media Şəbəkəsinin baş jurnalisti Məhəmməd Qulam Məhəmməd Bob ilə görüşüb.**




Görüş zamanı Əhməd İsmayılov qonağa Agentliyin fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. O, media sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və təkmilləşdirilməsi baxımından görüşün əhəmiyyətini qeyd edib, medianın inkişafı istiqamətində aparılan fəaliyyətin müxtəlif tərəflərlə əlaqələndirilməsi və təcrübə mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

”Əl-Cəzirə” Media Şəbəkəsinin baş jurnalisti Məhəmməd Qulam Məhəmməd Bob isə əlaqələrin inkişaf etdirilməsi üçün birgə layihələrin icrasının xüsusi önəm daşıdığını bildirib.

Görüşdə səmərəli əməkdaşlıq və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Aygün**

# Artıq iplər qopmaq üzrədir

## “Yunanıstan-Türkiyə gərginliyi NATO-da parçalanma yaradır”

**Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Yunanıstanın Egey dənizinə daxil olmasına reaksiya verib. O qeyd edib:**

”Bu silahlanma deyilən, ittifaq deyilən şeylə heç bir yerə gedib çıxa bilməzlər. Uzatdığımız əli tutun. NATO və üçüncü ölkələr Yunanıstanın nə etdiyini görməlidirlər. Müttəfiqlərimizi xəbərdar etmişik, onlardan obyektiv olmalarını gözləyirik”.



**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Hulusi Akarın açıqlamasını ”Şərq”ə şərh edib**: ”Türkiyənin qərarlılığı göstərir ki, bu məsələ NATO-da çox ciddi parçalanma yaradır. Yunanıstan Egey dənizi sahilərində öz əsgərlərini silahlandırıb, Türkiyənin dəniz sularına zərbə vurur.

Konkret olaraq fransızlar da Yunanıstanı meqa həddə silahlandırıb onu Türkiyə ilə silahlı müharibəyə təşviq ediblər.

Bu mənada artıq iplər qopmaq üzrədir. Yunanıstanın bütünlükdə nə etdiyini NATO üzvlərinin görəcəyinə inanmıram.

Hadisələrin sonrakı inkişafına isə Böyük Britaniya və Amerika müdaxilə edə bilər. Ya da əksinə, tərəflər Rusiya-Türkiyə münasibətləri kontekstində, bəlkə də daha kəskin bir vəziyyətin meydana çıxmasında maraqlı olar”.

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi



# Bütün dövlət qurumları yanğın təhlükəsizliyinə məsuliyyət daşıyır

## Təbiət məhv olmasın deyə hər kəs əl-ələ verib çalışmalıdır

**Üzərində "24 saat içində bir ağac orta hesabla üç nəfərin tənəffüsü üçün lazım olan oksigen sintez edir", yazılmış sosial reklam lövhəsi Bakı metropoliteni xidmətindən istifadə edən sərnişinlərə yaxşı tanışdır. Metrodan daim istifdə edənlər bu məlumatı, həmçinin ekologiyanın qorunmasına yönəlmiş digər sosial reklam lövhələrini müntəzəm görürlər.**

Eyni zamanda hansısa bölgədə, meşə massivində yanğın hadisələriylə bağlı da vaxtaşırı məlumatlar eşidirik. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarında isə ağacların, meşələrin həyat üçün - insanlar üçün necə önəmli olduğuna dair faktlar açıqlanır; günəşli bir gündə bir hektar meşə sahəsi havadan 220-280 kiloqram karbon qazı udur və 180-200 kiloqram oksigen buraxır. Bir hektar iynəyarpaqlı ağac ildə 40 tona qədər, yarpaqlı ağaclar isə təxminən 100 tona qədər toz tutur. 1 hektar meşə 200 nəfərin nəfəs almasını təmin edir... Ağaclar bizi qoruyur, bizə təmiz hava, nəfəs verir, biz isə onları məhv edirik. Yay fəsli ərzində ölkəmizin müxtəlif bölgələrində dəfələrlə meşə yanğınları, əkin sahələrinin qəsdən yandırılması hadisələri baş verib. Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Xidməti yanğınlarla mübarizə aparır, yanğınlar söndürülür, lakin bir müddət sonra hansısa başqa bir ərazidə yanğın hadisəsi ilə bağlı məlumatlar verilir. Meşə yanğınlarının ekologiyaya necə zərər vurduğu bəllidir. Əsas məsələ yanğınların qarşısının operativ şəkildə alınması və qəsdən törədilən yanğınlara görə konkret şəxslərin məsuliyyətə cəlb edilməsidir.

Bu məsələlərlə bağlı Fövqəladə Hallar Nazirliyində nazir, general-polkovnik Kəmaləddin Heydərovun iştirakı ilə geniş müşavirə keçirilib. Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov ölkədə son dövrlər baş verən meşə yanğınları barədə danışaraq bu yanğınların ilk növbədə qlobal istiləşmənin təsirindən qaynaqlandığını diqqətə çatdırıb. Bununla yanaşı, nazir qeyd edib ki, qlobal istiləşmənin təsirindən əlavə, yanğınların baş verməsinin əsas səbəbi insan faktoru olaraq qalır. Bəzi insanların sadə yanğın təhlükəsizliyi qaydalarına etinasız münasibəti və məsuliyyətsiz davranışı milli sərvətimiz olan meşələrdə yanğınların baş verməsinə, onilliklər ərzində formalaşmış meşə fondumuza, flora və faunaya ziyan vurulmasına gətirib çıxarır. Odur ki, meşə yanğınlarının qarşısının vaxtında alınması üçün bütün aidiyyəti qurumların əlaqəli şəkildə fəaliyyət göstərməsi mühüm əhəmiyyət kəsb edir. Ölkədə meşəlik ərazilərdə baş verən yanğınların söndürülməsi istiqamətində həyata keçirilən tədbirlər müzakirə edilib. Nazir yanğınların qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirib, həmçinin meşələrdə yanğın təhlükəsizliyi ilə bağlı normativ hüquqi aktlarda müvafiq dəyişikliklərin edilməsi ilə əlaqədar təkliflərin hazırlanması barədə Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib.

Xatırladaq ki, meşə və əkin sahələrində baş verən yanğınlarla bağlı danışan ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimovun sözlərinə görə, yanmış meşəlik ərazini bərpa edib öz vəziyyətinə qaytarmaq üçün 50 il lazımdır: "Samur-Yalama meşələri nəinki ölkəmiz, həmçinin dünya üçün əhəmiyyətlidir. Bu meşə tipi nadir hesab olunur. Cənubi Qafqazda yalnız Azərbaycan və Dağıstanda rast gəlinir. Biz meşələrimizi gələcək nəsillər üçün qorumalıyıq. Vətəndaşlara səslənirəm, ayıq-sayıq olun. Taxıl biçilmiş əraziləri yandırmayın". Qeyd edilir ki, bəzən taxıl sahələrinin biçindən sonra yandırılması əksər hallarda bilərəkdən törədilir. Həmin yanğınlar ətrafda yerləşən meşəlik əraziləri də təhlükə altına alır. Bu yanğınlar sadəcə mexaniki becərməni asanlaşdırır. Amma digər tərəfdən o sahə yandırılanda oranın canlı aləmi də yanır. Artıq könşənlərin yandırılması məfhumu olmamalıdır. Fermerlər və sahibkarlar biçindən sonra əkin sahələrini yandırmamalıdı. Həmçinin meşəlik ərazilərə istirahətə gedənlər ocaqlara nəzarət etmir, söndürmürlər. Belə məsələlərdə diqqətli olmalı, təbiətə biganə yanaşılmamalıdır.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında qeyd etdi ki, təkcə yay fəslində deyil, ümumiyyətlə, meşəlik ərazilərə, qoruqlara, zəmilərə, tarlalara daimi nəzarət olmalıdır. Yay fəslində isə nəzarət daha da gücləndirilməlidir. Çünki havaların isti keçməsi, biçilmiş zəmilərdə yığılıb qalmış quru otlar bir qığılcıma bənddir:**

- Bütün dövlət qurumları yanğın təhlükəsizliyinə məsuliyyət daşıyır. Meşələr yanmasın, ağaclar, yaşıllıq - təbiət məhv olmasın deyə yanğından mühafizə və təhlükəsizlik qaydalarına mütləq əməl edilməlidir. Yanğın təhlükəsinə qarşı qabaqlayıcı tədbirlərin görülməsi əsas şərtlərdən biridir. Bu da yanğının söndürülməsi, yanğının əhatə dairəsinin genişlənməməsi üçün qarşısının qısa zamanda alınması üçün lazım olan əşyaların, vasitələrin mövcud olmasıdır. Bütün alətlər işlək vəziyyətdə saxlanmalıdır. İstirahət mərkəzləri, kurort zonalar, parklarda, qoruq ərazilərdə yanğından mühafizə sistemləri mütləq olmalıdır. Hər cür hal mümkündür. Xüsusilə yay fəslində yanğın təhlükəsinə qarşı çox ayıq-sayıq olmaq lazımdır. Yay aylarında yanğın təhlükəsini önləmək məqsədilə yaşıllıqlara, park ərazilərinə, istifadəsiz yerlərə nəzarət artırılmalıdır. Hansı ərazilərdə quru otlar varsa, təmizlənməlidir, çünki quru otlar tez alışır və yanğının əhatəsi genişlənir. Zibilliklər vaxtlı-vaxtında təmizlənməli, zibillər tez-tez daşınmalıdır. Bütün hallarda yay aylarında yanğın təhlükəsi daha artıqdır və müvafiq qurumlar bunu nəzərə alaraq qabaqlayıcı tədbirlər həyata keçirməlidir. Yanğın təhlükəsinə qarşı video-çarxların nümayişi, sosial reklamların, maarifləndirici lövhələrin olması vacibdir. Bundan əlavə hesab edirəm ki, parklarda, yaşıllıq ərazilərdə, istirahət mərkəzlərində, əhalinin kütləvi istirahət etdiyi yerlərdə yanğın təhlükəsi və onunla mübarizə barədə məlumat lövhələri yerləşdirilməlidir və nəzarət edilməlidir. Bunun üçün böyük işçi qüvvəsi lazımdır. Məsələn, bu işə könüllülər cəlb edilə bilər. Xüsusən yay fəslində. Necə ki, dəniz sahillərinin təmizlənməsinə könüllülər cəlb edilir, eləcə də yanğınla bağlı məlumatlandırma və nəzarət kampaniyası da təşkil etmək mümkündür. Həmçinin qəsdən və ya səhlənkarlıqdan yanğın hadisəsinin baş verməsinə səbəb olan şəxslər cinayət məsuliyyəti daşıdıqlarını da bilməlidir. Bu zaman azadlıqdan məhrumetmə cəzası da ola bilər, dəymiş ziyanın ödənilməsi də. Baxır, yanğının nəticəsində dəymiş ziyanın miqyasına. Bütün hallarda hər bir şəxs, sahibkar, təsərrüfat sahibi torpağa ehtiyatla və ehtiramla yanaşmalıdır. Təbiət bizimdirsə, onun qədrini bilməliyik və ona ziyan vurmamalıyıq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Postların sayı 25-dən 30-a qaldırılıb

## Rus sülhməramlıları əhatə dairəsini genişləndirib

**Rusiya hərbi kontingenti avqustun 31-dən etibarən nəzarət-müşahidə postlarının sayını 25-dən 30-a qaldırıb. Bu fakt Rusiya Müdafiə Nazirliyinin rəsmi saytının sülhməramlılara aid bölməsindəki xəbər bülleteni və hərbi kontingentin dislokasiyasına aid infoqrafik xəritələrdən bəlli olub.**

Sülhməramlı kontingentin 31 avqust 2022-ci il tarixli xəbər bülletenində deyilir ki, "9 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın müddəalarının icrası çərçivəsində və Laçın dəhlizinin marşrutunun dəyişdirilməsi ilə əlaqədar müşahidə məntəqələrinin yerləşdiyi yerlər dəqiqləşdirilib". Vurğulanıb ki, 30 müşahidə məntəqəsində Rusiya sülhməramlıları gecə-gündüz vəziyyətin monitorinqini aparır və atəşkəs rejiminə əməl olunmasına nəzarət edirlər. Halbuki, 27 avqust 2022-ci il tarixli bülletendə müşahidə məntəqələrinin sayının 27-dən 25-ə endirildiyi göstərilib: "2022-ci il avqustun 26-dan üçtərəfli Bəyanatın icrası çərçivəsində Rusiya sülhməramlı kontingentinin iki müşahidə məntəqəsi azaldılıb".

**Politoloq Tural İsmayılov bildirib ki, Laçının Zabux kəndindəki 1-ci post Ermənistanın Gorunzur (Kornidzor) kəndinin yaxınlığında Həkəri çayının üzərindəki körpüyə yerləşdirilib.** Ekspertin sözlərinə görə, avqustun 31-dəki xəritədə Laçın və Zabux "ehtiyat"la Rusiya MN-in xəritəsindən çıxarılıb. Ancaq yeni yola dəxli olmayan Fətəlipəyə kəndinin yaxınlığındakı Qubadlı-Laçın yolunun üzərində yerləşən "Şivid xarabalıqları" adı ilə qeyd olunan məntəqədə də 2-ci post saxlanılıb: "Beləliklə, ümumilikdə köhnə və yeni Laçın "dəhliz"i ərazisində cəmi 2 post qalıb. Rusiya hərbi kontingentinin 10 noyabr bəyanatına zidd olaraq nəinki həmin kəndləri, Laçın şəhəri, Şuşa-Laçın və Qubadlı-Laçın yollarını da hava xətti ilə 500-1500 metr məsafədən nəzarətdə saxladığı bəlli olur. Bununla həm də yeni yol ilə köhnə "Laçın dəhliz"inin Laçın, Zabux, Sus və Qarıkahası məntəqələri istisna olmaqla, qalan hissəsi ilə birləşdirilərək daha böyük ərazini əhatə etmiş olduğu meydana çıxır".

**T.İsmayılovun sözlərinə görə, Rusiya kontingentinin 3-cü postu isə Şuşa rayonunun "Kirov" adıyla qeyd olunmuş Kiçik Qaladərəsi kəndində göstərilib:** "Halbuki, əvvəlki xəritə və video-görüntülərdən də bəlli olduğu kimi, ermənilərin məskunlaşdığı bu kənddə 2020-ci ilin 10 noyabrından dərhal sonra Rusiya hərbçilərinin postu qurulub. 31 avqusta aid xəritədən bəlli olur ki, Laçın ərazisi yaxınlığında əlavə iki post da qurulub. Xəritəyə nəzərən 10-cu post, yəqin ki, Şuşa-Laçın-Gorus yolu ilə alternativ yolun kəsişməsindəki Onverst kəndi ərazisində yerləşdirilib. Digər müşahidə postu isə Qarabağ silsiləsinin Laçın və Şuşa rayonlarının sərhədlərində yerləşən və hündürlüyü 1633 m olan strateji Bəzirgan aşırımındadır. Həkəri çayına tökülən Bəzirgansu çayının mənbə hissəsindəki bu aşırım xəritədə "Bazirgyay" kimi qeyd olunub. 1-ci post Şuşa rayonunun Turşsu qəsəbəsi yaxınlığına yerləşdirilib. Digər əlavə postlar isə Laçın "dəhlizi"ndən tamamilə uzaqda, Xocalı rayonunun Fərrux kəndində, Xocavənd rayonunun Qırmızı bazar qəsəbəsi yaxınlığında, Tərtər rayonunun Suqovuşan, Talış kəndlərində və Ağdərə şəhərinə yaxın strateji ərazilərdə yerləşdirilib".

**İsmayıl**

# Milyarder Vardanyan imkanlı erməniləri Xankəndiyə çağırır

## Bu təxribatın arxasında yenə Rusiyadakı siyasi dairələr dayanır



**Erməni əsilli rusiyalı milyarder Ruben Vardanyan Rusiya vətəndaşlığından imtina etmək və Qarabağa köçmək qərarına gəlib. Vardanyan deyib ki, üzərinə hansı riskləri götürdüyünü anlayır və Ermənistan vətəndaşı kimi Qarabağa köçmək istəyir:**

"Bu qərarı vermək mənim üçün asan olmadı, lakin belə düzgündür". Qeyd edək ki, "Forbes" 2021-ci ildə Ruben Vardanyanın sərvətini 1 milyard dollar olaraq qiymətləndirib. O, "Troyka Dialoq" investisiya şirkətinin təsisçisi və sabiq sahibidir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu 1 milyard dollardan artıq əmlakı olan Ruben Vardanyanın Rusiya vətəndaşlığından imtina edərək Xankəndinə yerləşməsinə sıradan hadisə kimi baxmır. Ekspertin fikrincə, bu, 44 günlük müharibədən sonra Azərbaycana qarşı həyata keçirilən növbəti və yaxşı planlanan təxribatdır:** "Vardanyanın Qarabağdan rus dilində yaydığı paylaşımını izlədim. O, həmin paylaşımda digər imkanlı erməniləri də Qarabağa köçməyə çağırıb. Rusiyada rahat həyat yaşayan və yaxşı pullar qazanan erməni niyə səfalət içində və Azərbaycan Ordusunun nişangahında olan bölgəyə köçsün ki? Əksinə, imkanı olan erməni Qarabağı və Ermənistanı tərk etməyə çalışır. Digər tərəfdən Vardanyan Qarabağ ermənisi də deyil. Köçməyə qaldıqda gərək Ermənistanın keçmiş prezidentləri və Qarabağ doğumlu Robert Koçaryan və Serj Sarkisyan qayıtmalıydı. Ancaq onlar daha təhlükəsiz yerdə yaşamağa üstünlük verdilər. Vardanyan Rusiya hakimiyyət təmsilçiləri ilə sıx bağlıdır. Deməli, bu təxribatın arxasında Rusiyadakı siyasi dairələr dayana bilər. Məqsəd Azərbaycan Ordusunun sonrakı irəliləmələrini müxtəlif yollarla əngəlləməkdir".

*Analitikin qənaətincə, Vardanyan Rusiyadan qazandığı pulları Qarabağın ermənilərin nəzarətində olan hissəsində xərcləməyə başlayacaq:* "Moskva qondarma lider Araik Arutyunyanı Ermənistanın Baş naziri Nikol Paşinyanın adamı kimi dəyərləndirir. Kremlin Araik Arutyunyanı Ruben Abramyanla əvəz etmək etmək planının varlığını istisna etmək olmaz. Araik Arutyunyan erməni əsilli keçmiş rusiyalı oliqarxın əhatəsində özünü gərgin hiss etməyə başlayacaq. Ruben Vardanyanın "Qarabağa gəlin" çağırışına başqa imkanlı ermənilərin səs verəcəyini istisna etmək olmaz. Laçına alternativ yol tikdik, orda da əli silahlı ermənilər peyda olublar. Növbəti çağırışlarla üz-üzəyik, cavabımız nə olacaq? Bu haqda düşünməliyik. Ordumuz öz işini görür və görəcək. Ancaq Ruben Vardanyanın siyasi gedişinə hansısa azərbaycanlı oliqarxın da öz biznesini Şuşa və ya Laçından idarə etməyə qərar verməsi yerində olmazdımı?".

**İsmayıl Qocayev**

**Elan**

Nuriyev Əli Şaban oğluna məxsus veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2491

# Payızda yoluxma sayının artacağı gözlənilir

## Dərslərin distant formaya keçirilməsi ilə bağlı qərarı Nazirlər Kabineti verəcək



**Yaxın qonşumuz Rusiyada yeni tədris ili başlanıb, onunla birlikdə COVİD-19-un yeni ştamlarına yoluxma sayında hər gün artım qeydə alınır. Qonşu ölkə hökuməti yoluxma sayında artımın davam edəcəyi və vəziyyətin təhlükəli hal alacağı təqdirdə məktəblərdə tədrisin distant formaya qayıdacağını istisna etmir. Bu gedişlə Rusiyada tədris ilinin başlanğıcına sevinənlərin sevinci uzun sürməyə bilər.**

Ölkəmizdə koronavirus statistikasında müsbət təzahür ölüm halının qeydə alınmamasıdırsa, yoluxma sayında görünən artım, müəyyən narahatlığa əsas verir. Bizdə də yeni tədris ilinin başlanmasına sayılı günlər qalır. Valideynlər bir tərəfdən övladları üçün məktəb bazarlığı edir, bir tərəfdən də dərslərin başlanacağı təqdirdə yoluxma təhlükəsinin artacağından ehtiyatlanırlar. Bu arada təhsil naziri Emin Əmrullayev koronavirusa yoluxma sayının artmasının yeni tədris ilinə təsiri barədə danışıb. Nazir 2021-2022-ci tədris ilində tədrislərin dayandırılmadığını xatırladıb: "Hesab edirəm ki, oxşar model yeni tədris ili üçün əgər koronavirusa yoluxmada say artımı olsa, tətbiq edilə bilər. Təbii ki, bu məsələdə Təhsil Nazirliyi Nazirlər Kabineti yanında Operativ Qərargahın və aidiyyəti dövlət qurumlarının qərarlarına uyğun addım atır. Bugünkü artım sayları əvvəlki dövrlərlə nisbətdə aşağıdır. Payız mövsümündə yoluxma sayının artması məktəblərin bağlanması ehtimalı məncə az olacaq. Ola bilsin, bəzi siniflər distant tədrisə keçə bilər. Bu da həmin vaxtın göstəricilərindən asılıdır".

**Həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında payız mövsümündə yoluxma sayının arta biləcəyini istisna etmədi. Lakin vurğuladı ki, yoluxma sayının artımı dərslərin distant formaya keçirilməsi üçün əsas səbəb deyil:**

- Karantin qaydalarının sərtləşməsi və ya yumşaldılması yoluxma sayındakı və ölüm hallarındakı statistik göstəricilərdən asılı olur. Azərbaycanda o zaman karantin qaydaları sərtləşdi, nə zaman ki ölüm hallarında artım baş verdi. Yoluxma sayında artım ölüm hallarının da artacağı anlamına gəlməməlidir. Çünki indiyədək mütəxəssislər dəfələrlə vurğulayıblar ki, COVİD-19-un yeni ştamları onun özü qədər güclü deyil, ümumiyyətlə, şəklini dəyişmiş viruslar heç vaxt virusun özündən güclü olmur. Biz bunu uzun müddətdir müşahidə edirik. "Delta", "Omikron", onun yeni variantı BA5 əvvəlkilər kimi yorucu və öldürücü olmadı. Amma əlbəttə, priventiv tədbirlərin görülməsi vacibdir. Məktəblərdə karantin qaydalarına uyğun olaraq gigiyenik vasitələrdən istifadə, şagirdlərin əllərini tez-tez yumaları, sinif otaqlarının dezinfeksiyası, səthlərin mütəmadi təmizlənməsi, şagirdlərin əllərini səthlərə - sinif oturacaqları, tutacqlar və s. sürtdükdən sonra yumaları mütləqdir. Çirkli əllərlə qida qəbul etmək qətiyyən olmaz. Şagirdlər özləri ilə mütləq kiçik su qablarında su götürsünlər. Maye qəbul etmək sağlamlığa müsbət təsir edir. Yenə də son qərar Nazirlər Kabinetinin olacaq. Dərslərin distant formaya keçidiylə bağlı Operativ Qərargah Təhsil Nazirliyi ilə razılaşdırılmış formada qərar verməlidir. Hələ ki, vəziyyət elə də qorxulu deyil.

**Məlahət Rzayeva**

# Arif Quliyevin oğlunun bir istəyi var

## "İstəyirik ki, vəfat edənə qədər yaşadığı ünvana atamızın adı verilsin"



**Azərbaycanın mərhum Xalq artisti Arif Quliyev böyükdən kiçiyə hər kəsin sevimli aktyoru idi. Onun rol aldığı səhnələri hər kəs maraqla izləyir.**

Daim unudulmaz sənətkar olaraq, qəlblərdə yaşayır. "Şərq" A.Quliyevin oğlu Rövşən Quliyevlə əlaqə saxlayıb, mərhum sənətkarın ailəsinin durumu ilə maraqlanıb:

"Atamın qəbrini həftədə bir dəfə ziyarət edirik. İndi elə zəmanədir ki, hamı telefonla hal-əhval tutur. Evimizə gələnlər də, gəlməyənlər də sağ olsunlar".

**A.Quliyevin adının əbədiləşdirilməsinə gəlincə, həmsöhbətimiz bunları deyib:**

"Bu zamana kimi hər hansı küçəyə adının verilməsi ilə bağlı müraciət etməmişik. Amma fikrimiz var, istəyirik ki, vəfat edənə qədər yaşadığı ünvana atamızın adı verilsin. Hazırda şirkətdə çalışıram. "Şərq" qəzeti ailəmizə doğmadır. Bizi həmişə yad edir. Atamın sağlığında da hər zaman qiymət verib. Allah razı olsun!".

**Sücayət Mehti**

# 6 dəqiqə ayaq üstdə alqışladılar



**Məşhur prodüserlərin nüfuzlu "Qızıl Aslan" mükafatı uğrunda yarışdığı 79-cu Venesiya Film Festivalında premyerası keçirilən "Tar" filmi 6 dəqiqə davamlı alqışlarla qarşılanıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, bu il avqustun 31-dən sentyabrın 10-dək keçirilən 79-cu Venesiya Film Festivalı çərçivəsində filmlərin nümayişi ilə davam edir.

Festivalın ikinci günündə "Tar" filminin premyerası olub. Qırmızı xalçaya Nina Hoss, Noemi Merlant, rejissor Todd Field, Sofi Kauer və Keyt Blanşett çıxıblar.

Todd Fieldin rejissor kreslosunda əyləşdiyi film nümayişdən sonra 6 dəqiqə alqışlarla qarşılanıb. "Bravo!" deyilib. Film Berlin filarmoniyasının dirijoru Lidiya Tarın hekayəsindən bəhs edir. Venesiya Film Festivalı kimi nüfuzlu tədbirlər Oskar və Qızıl Qlobus üçün mühüm presedent yaradıb. Bildirilir ki, baş rolu ifa edən Keyt Blanşettin ifası ona Akademiya mükafatlarında 8 dəfə nominasiya qazandıra bilər. Avstraliyalı aktrisa bundan əvvəl 2005-ci ildə çəkildiyi "Aviator" və 2014-cü ildə "Mavi Yasemin" filminə görə Oskar qazanmışdı. Blanşett qırmızı xalçada çiçək detalları olan Schiaparelli paltarı ilə seçilib.

**Turan**

# Siyasi-mədəni əlaqələr daha da genişlənəcək

## İtaliya Avropadakı ən mühüm müttəfiqimizdir



**"Azərbaycan Prezidenti İlham Əliyev İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda xüsusi qonaq kimi iştirak edib. Azərbaycanın bu forumda xüsusi qonaq qismində iştirakı ölkəmizə verilən dəyərin nəticəsi kimi qiymətləndirilə bilər".**

**Bu sözləri "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında deyib.**

Onun sözlərinə görə, gələcəkdə dövlətlərarası heyətlərin qarşılıqlı səfərlərinin şahidi ola bilərik: "Ölkə rəhbəri Azərbaycanın təkcə region yox, dünyanın müxtəlif ölkələrinin etibarlı enerji tərəfdaşı, qaz və neft tədarükçüsü olduğunu vurğuladı.

İtaliya Avropadakı ən mühüm müttəfiqlərimizdəndir. Eləcə də Azərbaycan qazının istehlakçısıdır. İtaliya Azərbaycan arasında ciddi əməkdaşlığın bariz nümunəsidir. İtaliya şirkətləri Azərbaycana böyük investisiya yatırıb. Qarabağda İtaliya şirkətlərinin vəsait qoyması ilə bağlı məlumatlar var.

Siyasi, iqtisadi, elm və təhsil, mədəniyyət sahəsində də tərəflər arasında sıx əməkdaşlıq mövcuddur. İtaliya-Azərbaycan münasibətləri həm regional, həm beynəlxalq təşkilatlar səviyyəsində, həm də ikili əlaqələrdə inkişaf etməkdədir. Çox az ölkələr var ki, Azərbaycan 1 milyard manatdan artıq ticarət dövriyyəsi aparır. Onlardan biri də İtaliyadır.

Hər il onlarla, yüzlərlə azərbaycanlı gənc İtaliyaya təhsil almağa gedir. Mədəniyyətlərarası əlaqələrimiz da var. Sosial, siyasi dəyərlər, ailə mədəniyyəti Azərbaycanla yaxınlıq təşkil edir. Ümumilikdə, hər biri gələcək üçün böyük perspektiv vəd edir".

**Aygün Tahir**

# İrəvanı növbəti dəfə ifşa etməliyik

## Sülh danışıqlarının getdiyi bir zamanda Paşinyanın "təbrik məktubu" təxribatdır



**Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağdakı erməni terrorçularının "müstəqilliyini" elan etdikləri gün münasibəti ilə təbrik məktubu yayılıb. Paşinyanın məktubunda qeyd olunub ki, 1991-ci il sentyabrın 2-də qəbul edilmiş bu qərar "Bakıda, Sumqayıtda, Gəncədə törədilən qırğınların təzahürü olan "ekzistensial təhlükəyə" cavab idi. Baş nazir bildirib ki, qondarma rejimin yaradılması qərarı "Artsax" ermənilərinin "təhlükəsizliyinin və hüquqlarının müdafiəsi" üçün təminat kimi qəbul edilib.**

Təbrik məktubunda Paşinyan Birinci Qarabağ savaşı, Aprel savaşı və nəhayət, 44 günlük müharibəni də xatırladıb. Baş nazir ermənilərin hələ də "Dağlıq Qarabağ"da yaşamasına diqqət çəkib.

**Ağ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, çox güman Baş nazir Nikol Paşinyan da bu məktubun heç bir əhəmiyyət daşımadığını gözəl anlayır. Partiya rəsmisinin sözlərinə görə, erməni baş nazirin "təbrik məktubu" daxili auditoriyaya hesablanmış addımdır:** "Məktubda xüsusi qeyd olunur ki, guya, Bakı, Sumqayıt və Gəncədə ermənilərə qarşı "qırğınlar" baş verib. Paşinyan "müstəqillik" qərarının bu "qırğınlara" cavab olaraq alındığını iddia edərək bir növ qondarma rejimə haqq qazandırmağa çalışır. Bunların hamısı uydurma olsa da, görünən odur ki, erməni tərəfi bu nüansdan hələ çox istifadə edəcək. Məqsəd Qarabağdakı erməni terrorçularına bəraət qazandırmaq və diplomatik danışıqlar masasına "rəsmi tərəf" kimi əyləşdirməkdir.
Azərbaycan-Ermənistan arasında sülh danışıqlarının getdiyi, müəyyən addımların atıldığı bir zamanda Paşinyanın məktubu və oradakı ifadələr açıq-aşkar təxribatdır. Məncə, İrəvanı növbəti dəfə ifşa etməliyik. Beynəlxalq təşkilatlara, Qərb ölkələrinə çatdırmalıyıq ki, Ermənistan sözdə razılaşmalara əməl edəcəyini desə də, əməldə başqa cür davranır. Heç bir "Artsax"dan, "müstəqillikdən" söhbət gedə bilməz. Qarabağ Azərbaycanın tərkib hissəsidir və orada yaşayan, terrora bulaşmamış mülki ermənilər də Azərbaycan vətəndaşlarıdır".

**İsmayıl Qocayev**

# Gülşənin 1 ildən 3 ilə qədər həbsi istənilib



**Türkiyəli müğənni Gülşənə qarşı ittihamnamə hazırlanıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, iddianamədə Gülşənin 1 ildən 3 ilə qədər həbsi istənilib.

Gülşən Çolakoğlu, 30 aprel 2022-ci ildə Ataşehirdə verdiyi konsert zamanı "Daha əvvəl İmam Hatipdə oxumuşdu, azğınlığı oradan gəlir" deyə açıqlama vermişdi.

Bundan sonra İstanbul Respublika Prokurorluğu müğənni Gülşən Çolakoğluna qarşı 24 avqust 2022-ci il gecəsi İmam Hatip Liseyi şagirdlərinin ünvanına söylədiyi sözlərə görə "ictimaiyyəti kin və düşmənçiliyə sövq etmək" cinayəti ilə bağlı rezidenti istintaqa başlayıb. İstintaq çərçivəsində avqustun 25-də nəzarətə alınan Gülşən 4 gün ev dustaqlığına buraxıldıqdan sonra sərbəst buraxılıb.

**Turan**

# Pekin bütün alətləri işə salıb

## Çin ABŞ valyutasını taxtdan salmağa çalışır



**Qlobal maliyyə bazarları Rusiya-Ukrayna müharibəsinin davam etməsi səbəbindən təzyiqlərlə üzləşir. Çin isə fürsət taparaq ABŞ dollarının hegemonluğunu aradan qaldırmağı hədəfləyir. Amerika iqtisadiyyatındakı bahalaşma və inflyasiya Çinin dünya bazarlarında yeni strateji mövqelərə yiyələnməsi üçün yaşıl işıq yandırır.**

ABŞ rəqiblərinin dəyirmanına su tökməmək üçün iqtisadi alətlərindən aqressiv şəkildə istifadə etmək məcburiyyətində qalır.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, ABŞ dolların dominantlığını saxlamaqdan ötrü pul siyasətini yenidən şəkilləndirməlidir. Ekspertə görə, ABŞ Federal Ehtiyatlar Bürosu (FED) buna görə faiz dərəcələrini artırmağı qarşıya məqsəd qoyur:** "FED faiz dərəcələrini artırarsa, qlobal vitrinlərdə dollarlaşma sürətlənəcək və Çin valyutası yuan bəzi mövqelərini tərk edəcək. Vaşinqton xarici investorları dollarla sərmayə qoymağa cəlb etmək üçün dollarlaşmanı sürətləndirmək ehtiyacı ilə qarşı-qarşıya olduğundan, bunun digər milli valyutalara mənfi təsir edəcəyi riski də ortalığa çıxır. Dolların gücü investorları dollarla ifadə olunan aktivləri almağa məcbur edir. Lakin Çin alternativ alətləri dünyaya gətirmək üçün hərəkət içərisindədir. Etiraf etmək lazımdır ki, ABŞ dolları beynəlxalq miqyasda ən etibarlı valyuta və iqtisadi təhlükəsizliyi təmin edən sığınacaq olaraq qalır. Bəzi ölkələr beynəlxalq ticarətdə hər nə qədər milli valyuta ilə mübadilə həyata keçirməyə çalışsalar da, dollarla ifadə olunan aktivlərə bazar tələbi aşağı düşmür, əksinə, əlavə dəstək qazanır. Buna görə milli valyutalarla beynəlxalq iqtisadi sistemdə ticarət müşkülə çevrilir".

**A.Kərimova görə, Rusiya, Türkiyə və İran da alternativ bir presedent yaratmaq imkanlarından məhrum kimi görünürlər:** "Milli valyutaların məzənnəsinin dolların bahalaşması ilə tərs mütənasibliyi böyük şirkətlərin risklərdən qaçmaq üçün ABŞ valyutasına olan etibarını yüksəldir. Lakin Çin dolları oturduğu taxtdan endirmək üçün səylərini əsirgəmir. Pekində böyük bir inam var ki, ABŞ valyutasını çökdürmək baş tutacaq. ABŞ-ın dollar hegemonluğu tezliklə yox olmayacaq. Sadəcə, qlobal bazarlardakı qeyri-sabitliyin hazırkı raundu Çinə öz alternativ potensialını inkişaf etdirmək imkanı verir. Çinin alətləri effektiv nəticələr hasil etsə, onda ABŞ dünyanı dollarla yeni sınağa çəkəcək və digər valyutaların devalvasiyası qaçılmaz olacaq" .

**İsmayıl**



# Mərkəzi Bank hərəkətə keçməlidir

## Bəzi rayonlarımızda orta kredit faizləri Bakıya nisbətən 2 dəfə yüksəkdir

**"Mərkəzi Bankın məlumatına görə, Bakıdan sonra ölkə üzrə ən aşağı orta kredit faizləri Naxçıvanda təklif edilir". Bu sözləri millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, Azərbaycan üzrə orta kredit faizi 12.12 faiz olduğu halda, bu göstərici Bakıda 10.68, Naxçıvanda isə 13.04 faizdir:**

"Orta faiz hesablanan zaman bura yalnız istehlak kreditləri deyil, eyni zamanda bütün növ biznes borclanması da daxildir. Bu baxımdan, istehlak kreditləri üzrə orta faiz dərəcəsi daha yüksəkdir. Burada diqqətçəkən digər məqam, rayonlarda orta kredit faizlərinin Bakı şəhəri ilə müqayisədə kəskin yüksək olmasıdır. Digər iqtisadi rayonlarda da orta kredit faizləri paytaxt ilə müqayisədə çoxdur. Bəzi rayonlarımızda orta kredit faizləri Bakıya nisbətən 2 dəfə yüksəkdir. Rayonlarda orta faizlərin yüksək olması ümumi kredit portfelinin strukturunda biznes kreditlərinin payının az olması ilə bağlı olsa da regionlarda yüksək faizlər daha çox borclanma yaradır. Eyni zamanda, regionlarda sərmayə qoyuluşunun artırılması üçün ucuz kredit alətindən daha çox istifadə olunması vacibdir. Ümumi kredit portfelinin də 80 faizə yaxını paytaxtın payına düşür. Bu da bölgələrdə kredit qoyuluşlarının Bakı ilə müqayisədə xeyli az olduğundan xəbər verir. Bu isə o deməkdir ki, Mərkəzi Bank tərəfindən kredit portfelində və faizlərində regional disbalansın azaldılması və eləcə də bank sektorunda rəqabətin gücləndirilməsi ilə bağlı sistemli və daha ünvanlı tədbirlərin genişləndirilməsinə ehtiyac var".

**İsmayıl**

# Vüsalə Əlizadə cəsarəti ilə öyündü

## Aparıcı bacısının mədəkiçiltmə əməliyyatında iştirak edib



**"Kim belə ürəklidir ki, bacısının mədəsini əlində saxlasın. Belə qızlar var.**

Mədənin kəsilən hissəsi kənarda şar kimi doldurulub, yəni böyük görüb qorxmayın".

"Şərq"in xəbərinə görə, bu sözləri bacısı mədəkiçiltmə əməliyyatı olan aparıcı Vüsalə Əlizadə deyib.

O, bacısının əməliyyatında iştirak edib. Həmin anlardan görüntüləri İnstaqram izləyiciləri ilə bölüşüb.

**Aygün Tahir**

# Çinli dünyanın ən uzun kirpikli adamıdır



**Çinin Çançjou şəhərində yaşayan You Jianzia dünyanın ən uzun kirpiklərinə sahibdir.**

"Şərq" xəbər verir ki, Jianzianın kirpiklərinin uzunluğu 20,5 santimetrdir.

**Günəş Mərd**